Artıq son 4 ildir ki, Prezident İlham Əliyev yanvar ayının birinci yarısında yerli televiziya kanallarına müsahibə verir. Belə ki, dövlət başçısı yerli media nümayəndələri ilə 2022-ci il yanvar ayının 12-də, 2023 və 2024-cü illərdə isə yanvarın 10-da görüşüb.

Demokratik prinsiplərə və xalqla dialoqa bağlılığın nümunəsi

Bu müsahibələr ölkə daxilindəki mövcud vəziyyəti və dövlətin gələcək perspektivlərini əks etdirməklə yanaşı, həm də Prezidentin şəffaflıq, xalqla əlaqə və kommunikasiya sahəsindəki mövqeyini gücləndirib. Prezident İlham Əliyevin yerli media ilə açıq dialoq qurması, xalqın suallarına birbaşa cavab verməsi və ölkənin əsas məsələlərini müzakirə etməsi, həmçinin hökumətin fəaliyyətini müasir dövrün tələblərinə uyğun şəkildə təqdim etməsi baxımından böyük əhəmiyyət daşıyır. Bundan əlavə, yerli televiziya kanalları Prezidentin və dövlətin fəaliyyətini müxtəlif auditoriyalara çatdıran təsirli vasitədir. Odur ki, ölkə rəhbərinin yerli jurnalistlərə müsahibə verməsi hökumətin hər zaman ictimai müzakirələrə açıq olduğunu və vacib məsələlərdə cəmiyyətin fikirlərinə hörmətlə yanaşdığını göstərir. Dövlət başçısının öz vətəndaşlarına birbaşa müraciət etməsi, onların təklif və narahatlıqlarına yerində cavab verməsi həm də cəmiyyətdəki müxtəlif sosial, iqtisadi və siyasi məsələlərlə bağlı daha dərindən məlumatlanmağa imkan yaradır.

2024-cü il yanvarın 10-da İlham Əliyev 3 saata yaxın davam edən və 20-dək istiqamət üzrə sualları cavablandırdığı müsahibədə bir çox məsələlərə toxunub, ölkənin siyasi, iqtisadi və sosial inkişafını ətraflı izah edib. Dövlət başçısına ünvanlanan əsas suallar tarixi reallıqlar barədə olub. Belə ki, Azərbaycan qısa müddət ərzində ərazi bütövlüyü və suverenliyini bərpa edib, işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq işlərini davam etdirib, tarixi yurd yerlərimizə əhalinin köçünü təmin edib. Bunlar cəmi bir neçə ilin içərisində baş vermiş kimi görünsə də, əslində prosesin kökü daha əvvəlki tarixlərə uzanır. Müstəqil Azərbaycan üçün həlledici məqam məhz 1993-cü il hesab olunmalıdır. Xalq həmin tarixdə doğru seçim etdi, müstəqilliyini yenicə bərpa etmiş ölkənin daha ağır faciələrə düçar olmadan gələcək inkişaf yolu üçün ən düzgün qərarı verdi. Beləliklə də ölkədə vətəndaş müharibəsinə son qoyuldu, milli sabitlik təmin olundu və bunların məntiqi nəticəsi olaraq dövlətçilik prinsipləri bərqərar oldu, xalq-iqtidar birliyi gücləndi. Odur ki, son 20 ildə Azərbaycanın uğurlarının təməlində məhz 1993 və 2003-cü ildə edilən düzgün seçimlər dayanır. Amma sözsüz ki, bu illər ərzində tarixi uğurlara imza atmaq heç də asan olmayıb. 30 illik işğalın böyük zəfərlə əvəzlənməsi üçün hərbi və siyasi müstəvidə kritik addımlar atılıb. 44 günlük savaşda əldə olunan qələbənin ardınca 2023-cü ilin sentyabrında reallaşdırılan lokal xarakterli antiterror tədbirləri isə bu istiqamətdə ən böyük nailiyyət kimi dəyərləndirilə bilər. Çünki məhz separatizmin ləğvi ilə Cənubi Qafqazda yeni reallıq formalaşıb. Bu məsələyə dövlət başçısı da müsahibə zamanı aydınlıq gətirib: "Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik. Yəni bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki, - hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, - bizimlə hədə-qorxu dili ilə yaxud da təkəbbürlə davranmaq mümkün deyil. Yenə də deyirəm, əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. Şuşa əməliyyatına oxşar bir əməliyyat idi. Əlbəttə, Şuşa əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu".

Bu yolda isə rəsmi Bakı beynəlxalq təşkilatların qərəzli siyasəti ilə üzləşib. Beləliklə, dövlət başçısının da qeyd etdiyi kimi ədalət özüözünə gəlmir, ədaləti sən gərək təmin edəsən: "Əgər mənim çıxışlarıma nəzər salsanız, bəlkə də son 10-15 il ərzində mən dəfələrlə deyirdim ki, dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir. Biz, məhz bu prinsipi rəhbər tutaraq son illər ərzində fəal işləmişik və ədaləti özümüz bərpa etmişik".

Xarici ölkələrin ədalətsiz və qərəzli yanaşmasından danışmışkən Fransanın bu məsələdəki rolunu xüsusilə vurğulamalıyıq. Bu ölkənin tarix boyu ermənilərlə yaxınlığı olsa da, əvvəllər Azərbaycan-Ermənistan kontekstində daha balanslı mövqe sərgiləyib. Hətta Fransa Prezidenti Jak Şirak ATƏT-in Minsk qrupuna həmsədrlik etmək üçün uzun müddət ulu öndər Heydər Əliyevi razı salmağa çalışıb və inandırıb ki, Yelisey sarayı neytral siyasət yürüdəcək. Pərdə arxasında hansı addımların atıldığı qaranlıq olsa da zahirən görünən odur ki, rəsmi Paris 44 günlük savaşa qədər Hayastanın açıq himayədarı kimi çıxış etməkdən çəkinib. Fransanın Cənubi Qafqazla bağlı destruktiv mövqe nümayiş etdirməsi prezident Emmanuel Makronun hakimiyyətə gəlməsi ilə başladı. Eyni zamanda 44 günlük müharibənin məhz Rusiyanın iştirakı ilə sona çatması da Parisi qıcıqlandıran məqamlardan biri oldu. Çünki ümumilikdə Avropa Kremlin nüfuzunu qətiyyətlə rədd edirdi. Digər tərəfdən, Afrikadakı müstəmləkələrindən qovulan Fransa Ermənistan üzərindən Cənubi Qafqazda eyni siyasəti icra etməyə çalışırdı. Amma Azərbaycanın güclənməsi fonunda onların bu planları da fiaskoya uğradı. Nəticədə Makron administrasiyası Qarabağdakı keçmiş qondarma respublikaya dəstək verməyə başladı. Dövlət başçısının müsahibədə də qeyd etdiyi kimi bu ölkənin həm parlamenti, həm də Senatı qondarma "artsax"ı tanıdığını bəyan etdi. Paris meri isə Qarabağdan çıxanlara fəxri vətəndaşlıq verdi. Prezident İlham Əliyev bundan sonra təklif etdi ki, Fransa fəxri sözünü real vətəndaşlıq ilə əvəz etsin, onları Parisin mərkəzində yerləşdirsin və orada Artsax respublikası elan etsin. Reallıqlara lal, kor, kar olan Makron hökuməti isə vəziyyəti gərginləşdirməyə davam etdi. Onlar BMT-nin Təhlükəsizlik Şurasında ölkəmizə qarşı sanksiya tələbi ilə çıxış etdilər. Bu da yetmirmiş kimi vandalizmə başladılar, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi Natəvanın heykəlini təhqir etdilər. Prezidentin yerli jurnalistlərə müsahibəsində vurğuladığı kimi rəsmi Bakı isə bütün bu gedişlərə tarixi reallıqlara əsaslanaraq hüquqi çərçivədə adekvat cavab verdi və verməkdə davam edir: "Belə ki, fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında dünyanın xatırlayacağı faktlar həddindən artıq çoxdur. Buraya Əlcəzairdə indi də istifadə olunmayan böyük əraziləri zəhərləyən nüvə sınaqları daxildir. Həmçinin mina terrorunu da əlavə etmək olar, yeri gəlmişkən, fransızların Əlcəzairdə basdırdıqları minalardan insanlar indi də həlak olurlar. Bir milyon yarım əlcəzairlinin soyqırımı və digər faktlar da var. Müstəmləkə ölkələrində başqa cinayətlər də törədilib və bu, əlbəttə ki, neokolonializmin rüsvayçı təzahürüdür. Bu gün Fransa müstəmləkələrə sahib olmağı, onları idarə etməyi, sıxışdırmağı, viran qoyulmuş ölkələrin bu müstəmləkə zülmündən qurtulmasına imkan verməməyi adi bir hal kimi qəbul edir. Qoşulmama Hərəkatının sədri kimi biz bu məsələni qaldırdıqda və Bakı təşəbbüsünü irəli sürdükdə müstəmləkə ərazilərinin - Fransanın dənizaşırı adlanan ərazilərinin nümayəndələrinin iştirakı ilə tədbirlər həyata keçiririk. Onların hər cür təzyiqlərə məruz qalması bizə məlumdur. Onları çağırır, profilaktikadan keçirir, hədə-qorxu gəlirlər. Bu yaxınlarda Yeni Kaledoniyada bir azərbaycanlı jurnalist qadını saxlayıblar. Ümumiyyətlə, bu, hansı çərçivəyə sığır?".

Dövlət başçısının bu cavabı onu göstərir ki, Azərbaycan Fransanın davam edən təzyiqlərinə qarşı tutarlı cavab verməyə davam edəcək. Çünki bu, ölkəmizin yeni dövründə qarşıya qoyduğu əsas məqsədlər sırasındadır. Bu da səbəbsiz deyil. Belə ki, Fransa XIX və XX əsrlərdə dünyanın ən böyük müstəmləkə imperiyalarından birini qurub və bununla yanaşı, bir çox ölkələrin siyasi və iqtisadi inkişaflarına təsir edib. Paris bu siyasətini müasir dövrdə də davam etdirməyə çalışır. Rəsmi Bakı isə müstəqillik arzusu ilə yaşayan dövlətlərə dəstək verəcəyini açıq şəkildə bəyan edir. Bu kontekstdə Bakı Təşəbbüs Qrupunun fəaliyyəti yüksək dəyərləndirilməlidir. Azərbaycan, həmçinin müxtəlif QHT-lər vasitəsilə də fransız kolonializmdən əziyyət çəkən dövlətlərə yardım edəcəyini bildirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi geniş müsahibə də bunun sübutudur: "Onlar hədələnir, onlara qarşı ədalətsizlik bir qayda olaraq artıq özünü təsdiqləyib. Onların müdafiəsinə qalxmaq istəyən tərəflərin, təşkilatların sayı da çox azdır. Çünki yenə də deyirəm, mən bunu demişəm, heç kim başağrısı istəmir, heç kim istəmir ki, böyük dövlətlərlə, - hər halda özlərini belə sayan, - üzüzə gəlsin. Amma biz bunu edirik və edəcəyik. Bu müstəmləkəçilik praktikası davam edənə qədər biz o xalqların yanında olacağıq".

Yeni missiyadan bəhs edərkən Böyük Qayıdışı xüsusilə vurğulamalıyıq. Çünki dövlət başçısının ötən il səsləndirdiyi bütün fikirlərin artıq reallığa çevrildiyini görürük. Qayıdış uğurla davam etdirilir, işğaldan azad olunan ərazilər cənnətməkana çevrilir. Ölkə başçısının bu il yerli televiziya kanallarına müsahibəsinə nəzər salanda da bu məqam özünü göstərir. Prezident jurnalistlərin sualına cavabında bildirib ki, cari il ərzində keçmiş köçkünlər 20-yə yaxın yaşayış məntəqəsinə qayıdacaq. Həmin şəhər və kəndlərin adı da indidən müəyyənləşdirilib və müvafiq layihələr icra edilir. Bunların fonunda istisna deyil ki, Qarabağ cənnətə çevriləcək, ən son infrastruktr yenilikləri məhz bu regionda özünü göstərəcək.

Ölkə rəhbərinin ötən il yanvarın 10-da jurnalistlərə müsahibəsində bir məqam da xüsusi diqqət çəkir. Bu, bəlkə də ötən ilin ən vacib hadisəsi olan COP29-la bağlıdır. Dövlət başçısı bildirmişdi ki, Azərbaycan "yaşıl enerji" sahəsində önə çıxan ölkələrdən birinci olacaq və bu istiqamətdə əsas müzakirələr məhz ölkəmizdə aparılacaq. Belə də oldu. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çox əhəmiyyətli qərarlara imza atdı. İqlim dəyişmələri ilə mübarizənin arenası məhz Bakı oldu. Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində də ölkəmizin mötəbər tədbirə uğurlu ev sahibliyi vurğulandı: "Əlbəttə, COP-un əsas mövzularından biri maliyyələşmə məsələsi idi. Bilirəm ki, 1 trilyon dollar civarında gözləntilər var idi, ancaq bu, tamamilə qeyri-real rəqəm idi. Nailiyyət isə ondan ibarət oldu ki, biz qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıra bildik. Çünki COP29-dan əvvəl razılaşdırılmış rəqəm 100 milyard dollar idi. Burada - Bakıda biz onu 300 milyard dollara çatdırdıq. Yəni kimsə iddia edirsə ki, bu, uğursuzluq idi, bu, ədalətsizlikdir. Bu, nailiyyət idi və bu, gələcək üçün bir miras oldu. Bundan başqa da mühüm təşəbbüslər oldu - Azərbaycanın irəli sürdüyü təşəbbüslərin sayı 14 idi. Onların hamısını sadalamaq istəmirəm. Lakin bu, bizim bu məsələyə nə qədər ciddi yanaşdığımızı göstərir".

Həm 2024-cü il yanvarın 10-da, həm də bu il yanvarın 7-də yerli televiziya kanallarına verilən müsahibələr onu göstərir ki, Prezidentin xalqla münasibətləri yalnız rəsmi tədbirlərlə deyil, həm də mütəmadi olaraq həyata keçirilən dialoqlar vasitəsilə qurulur. Bu isə cəmiyyətdəki məsələlərə daha çevik və düzgün yanaşmanı təmin edir. Yəni yerli televiziya kanallarına verdiyi müsahibə Prezidentin xalqla birbaşa əlaqəsi, ölkədə baş verən hadisələrə dair şəffaf informasiya axını və dövlətin islahatlarla bağlı apardığı siyasət haqqında cəmiyyətin daha yaxşı məlumatlandırılması baxımından böyük əhəmiyyət daşıyır. Bu müsahibə, həmçinin Azərbaycanın gələcək inkişafına dair təhlillər və müvafiq hədəflərin təyin edilməsi baxımından əhəmiyyətlidir. Çünki bu, ölkə rəhbərinin demokratik prinsiplərə və xalqla dialoqa olan bağlılığını bir daha nümayiş etdirir.

Jalə QASIMZADƏ,
"Respublika".